# UŞAQLARA QARŞI CİNSİ ZORAKILIQLA MÜBARİZƏ

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

## Mütəxəssislər və valideynlər üçün məlumatlandırıcı kitabça



***Bütün uşaqların təhlükəsiz mühitdə yaşama və cinsi zorakılıqdan müdafiə olunma hüququ var...***



# Cinsi istismarın və cinsi zorakılığın qurbanı olma!

## Lanzarote Konvensiyası hüquqlarından istifadə et!



**Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan qorunması haqqında Avropa Şurasının Konvensiyası uşaqlara qarşı cinsi cinayətlərin qarşısının alınması, günahkarların cinayət məsuliyyətinə cəlb edilməsi və uşaq qurbanlarının qorunması baxımından vacib sənəddir.**



*Konvensiya 25 oktyabr 2007-ci ildə İspaniyanın Lansarote adasında imzalanmış, 1 iyul 2010-cu ildə qüvvəyə minmişdir. Qeyd edilən Konvensiya Azərbaycan Respublikasının 1681 VQ nömrəli 22 oktyabr 2019-cu il tarixli Qanunu ilə təsdiq edilmişdir.*

# Konvensiya aşağıdakıları əhatə edir:

- Uşaqların hüquqlarına hörmət etmək;
- Rifahını təmin etmək;
- Fikirlərinə, ehtiyaclarına və qayğılarına cavab vermək;
- Hər zaman yüksək maraqlarına uyğun hərəkət etmək.



# Uşaq hüquqları haqqında Konvensiyanı ratifikasiya edən dövlətlər aşağıdakıların qarşısını almaq üçün bütün lazımi tədbirləri görməlidir:




a) uşağın hər hansı seksual fəaliyyətə sövq və ya məcbur edilməsi;

b) istismar məqsədilə uşaqlardan fahişəlikdə və ya digər seksual praktikada istifadə edilməsi;

c) uşaqların pornoqrafiya və pornoqrafik material-larda istifadə edilməsi.

# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİnə əsasən

- *On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır*

- *Eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə üç ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır*

- *On altı yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmə iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır*

- *Eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə bir ildən iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır*





# YADDA SAXLA!

- *Sosial çevrənizdə və ya yaşadığınız bölgədə, təhsil aldığınız, işlədiyiniz yerlərdə, xüsusilə də uşaqların çox olduğu məkanlarda onlara qarşı qeyri-etik davranan insanlarla rastlaşmaq mümkündür.*

- *Bununla yanaşı bir çox insan cinsi istismara yalnız qız uşaqlarının məruz qala biləcəyi ehtimalını düşünür, lakin təəssüf ki, buna oğlan uşaqları da məruz qala bilər.*

# Cinsi istismara məruz qalmış uşaqların fiziki və psixoloji əlamətləri:



- *Gecə yuxuya getməkdə problem və kabuslar*
- *Aqressiv hərəkətlər*
- *Bəzi məkan və ya insanlardan qorxmaq*
- *Özünə zərər vermə davranışları*
- *Evdən və ya məktəbdən tez-tez qaçmaq*
- *Özünə qapanma*

**QEYD:** *Əgər uşaqda bu kimi davranışlar müşahidə olunmuşsa və ya cinsi istismarın olduğu aşkarlanmışsa mütləq mütəxəssisə müraciət olunmalıdır. Əks halda uşaq böyüdükcə, yaşadığı travmalar da onunla birlikdə böyüyəcək və bir ömür boyu onu izləyəcək.*



- *Övladınıza heç kəsin ona toxunmasına icazə verməməyi və* **«yox!»** *deməyi öyrədin;*
- *Kimlərlə vaxt keçirdiyindən xəbərdar olun;*
- *Yoldaşları ilə ünsiyyət qurun;*
- *Daim davranışlarını müşahidə edin;*
- *Ona inandığınızı hiss etdirin.*





- Uşaqların təcavüzə reaksiyası fərqli ola bilər. Xüsusilə də təcavüzü açıqlayanda gördüyü yanaşma uşağın təcavüzü və özünün bu prosesdəki rolunu qəbul etmə formasına əhəmiyyətli dərəcədə təsir göstərir.
- Özünə inanan və dəstək verən ailə mühitinin olması uşağın aldığı travmanın öhdəsindən gəlməsinə və onun təsirini azaltma qabiliyyətinə müsbət təsir edir.

**Uşaqlar sizin gələcəyinizdir!**
**Uşaq istismarına səssiz qalmayın!**

*Gələcəyinizi parlaq, sağlam və xoşbəxt görmək istəyirsinizsə, onları fiziki və mənəvi təhlükələrdən qoruyun, uşaqlara etinasız və laqeyd yanaşmayın!*



AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ BELƏ HALLARLA ÜZLƏŞƏN ŞƏXSLƏRƏ DƏRHAL KOMİTƏ YANINDA FƏALİYYƏT GÖSTƏRƏN

**(012) 860**

**QAYNAR XƏTTƏ**

VƏ YA

Daxili İşlər Nazirliyinin

**102 xidmətinə**

MÜRACİƏT ETMƏYİ TÖVSİYƏ EDİR!


Sənə qarşı kobud rəftar edirlər?
UNUTMA!
Yardım telefon qədər yaxındır!
UŞAQ QAYNAR XƏTTİ
116111
(051) 880 11 80
(050) 680 22 80
(051) 880 22 80
(051) 580 22 80

AZƏRBAYCAN RESPUBLİKASI
NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

UNFPA



# Gender-əsaslı zorakılıqla bağlı
# Qaynar Xətt



## 860

- Gender-əsaslı zorakılıq / məişət zorakılığı ilə bağlı maarifləndirici xarakterli məlumatın təqdim edilməsi
- Gender-əsaslı zorakılıq / məişət zorakılığı halı ilə üzləşmiş qadın və qızlara mövcud olan müvafiq dəstək xidmətləri barədə məlumatın verilməsi
- Zorakılıq halı ilə üzləşmiş qadın və qızlara psixoloji konsultasiyaların göstərilməsi